Ədəbiyyat qəzeti 3 dekabr 2022-ci il 17



# *Hüseyn Abbaszadə unudulmazlığı*

Noyabrın 28-də Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Xalq yazıçısı - Dövlət Mükafatı laureatı Hüseyn Abbaszadənin (1922-2007) anadan olmasının 100 illiyi ilə bağlı tədbir keçirilib. Tədbirin aparıcısı - Xalq yazıçısı Çingiz Abdullayev ilk sözü filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifliyə verib. Vaqif Yusifli Hüseyn Abbaszadənin həyat və yaradıcılıq yolundan söz açan məruzə ilə çıxış edib. O, Hüseyn Abbaszadənin Böyük Vətən müharibəsində bir döyüşçü - topçu zabit kimi iştirakını, M.Əliyev adına Teatr İnstitutunda təhsil aldığını, daha sonra "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor kimi fəaliyyətini, 1975-1991-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi vəzifəsində çalışdığını qeyd edib. Hüseyn Abbaszadə yaradıcılığa şeirlə başlasa da, uşaqlara həsr etdiyi şeir kitabları ilə diqqəti cəlb etsə də, 1962-ci ildə çap olunan "Həzi Aslanov" romanı ilə böyük şöhrət qazanıb. Məruzəçi Hüseyn Abbaszadənin yaradıcılığında nəzərə çarpan iki əsas mövzu - müharibə və mənəvi əxlaqi mövzularda yazdığı əsərlərdən geniş söz açıb, onun təkcə Azərbaycanda deyil, keçmiş SSRİ məkanında da bir nasir kimi tanındığını, xüsusilə, rus tənqidçilərinin onun yaradıcılığından söz açdığını qeyd edib.

Sonra söz Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara verildi. Anar müəllim Hüseyn Abbaszadənin təkcə görkəmli bir yazıçı kimi deyil, həm də bir naşir və kitab işlədiyi illərdə yorulmaz fəaliyyətindən söz açıb. Anar Hüseyn Abbaszadənin həm də bir insan kimi fərdi xüsusiyyətlərini, xüsusilə, qayğıkeşliyini, belə bir yazıçının heç bir vaxt unudulmadığını nəzərə çatdırıb.

Tədbirdə "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, Azərbaycan Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli, yazıçı-publisist Vaqif Əlixanlı, şair Sədi Fətəliyev də çıxış edib, Hüseyn Abbaszadə haqqında xatirələrini söyləyiblər.